# 20 YANVAR ümümxalq hüzn günüdür



iqtisadi qüdrətimiz naminə!

# iQTiSADiYYAT

www.iqtisadiyyat.com

№ 02 (897)
15 - 21 yanvar
2016-cı il

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

# Müşahidə olunan qiymət artımı yerli məhsullara şamil edilməməlidir

***Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.***



Prezident İlham Əliyev 2015-ci ildə dünyada və regionda iqtisadi, siyasi və hərbi böhranın daha da dərinləşdiyini, qanlı toqquşmaların davam etdiyini bildirdi. Dövlətimizin başçısı Yaxın Şərqdə gedən qanlı toqquşmalar nəticəsində yüz minlərlə insanın həlak olduğunu, milyonlarla insanın qaçqın və köçkün vəziyyətinə düşdüyünü diqqətə çatdırdı. Vaxtilə ölkəmizin də bu problemlə üzləşdiyini, lakin daxili resurslar hesabına vəziyyətdən çıxdığını, qaçqınların həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı mühüm tədbirlərin görüldüyünü bildirdi. Hazırda qaçqınların üz tutduğu Avropada radikal qüvvələrin, islamofobiya meyillərinin güclənməsinin müşahidə olunduğunu deyən Prezident İlham Əliyev dünyada yaşanan sivilizasiyalararası anlaşılmazlığın Azərbaycanı da narahat etdiyini, ölkəmizin bu təhlükəli meyillərin müsbət məcraya yönəldilməsi üçün səylərini artıracağını vurğuladı.

Keçən il Türkiyə-Rusiya münasibətlərinin kəskinləşdiyini, hər iki ölkənin Azərbaycanla yaxın qonşu olduğunu və vəziyyətin arzuedilən olmadığını deyən dövlətimizin başçısı son vaxtlar İran və Səudiyyə Ərəbistanı arasındakı münasibətlərin də ölkəmizi narahat etdiyini, bu vəziyyətin müsəlman aləmində baş verən hadisələrə təsir göstərdiyini diqqətə çatdırdı.

2015-ci ildə Azərbaycanın uğurla inkişaf etdiyini, qarşıda duran vəzifələrin icra olunduğunu deyən Prezident İlham Əliyev ötən il özünün 20 ölkəyə, 15 ölkənin dövlət və hökumət başçısının isə Azərbaycana səfərlər etdiyini bildirdi. “Azərbaycan bundan sonra da regionda sabitləşdirici rol oynayacaq, risklərin azalmasına çalışacaq”, - deyən dövlətimizin başçısı ötən il Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı heç bir irəliləyişin olmadığını, prezidentlərin son görüşünün də formal xarakter daşıdığını qeyd etdi.

Azərbaycanın mövqeyinin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslandığını deyən Prezident İlham Əliyev 2015-ci ildə təmas xəttində Azərbaycanın üstünlüyə yiyələnərək öz iradəsini diktə etdiyini, ölkəmizin bundan sonra da döyüş potensialını gücləndirəcəyini vurğuladı.

2015-ci ildə neftin qiymətinin düşməsinin və manatın devalvasiyaya uğramasının Azərbaycanda iqtisadi proseslərə də təsir etdiyini deyən dövlətimizin başçısı bunun səbəbinin kənarda yarandığını, neftin qiymətinin azalmasının iqtisadi yox, siyasi amillərlə bağlı olduğunu bildirdi.

Bütün sosial proqramların, o cümlədən sosial infrastruktur layihələrinin icra olunduğunu, yeni iş yerlərinin açılması və regionların inkişafı ilə bağlı tədbirlərin görüldüyünü deyən Prezident İlham Əliyev 2015-ci ildə Azərbaycan əhalisinin 114 min nəfər artdığını vurğuladı.

Çıxışında TANAP layihəsinin əhəmiyyətinə toxunan dövlətimizin başçısı daha sonra 2015-ci ildə ilk dəfə keçirilən birinci Avropa Oyunlarından danışdı, bu idman tədbirinin bütün dünyaya Azərbaycanın imkanlarını göstərdiyini, ölkədə müasir idman, nəqliyyat və xidmət infrastrukturunun yaradıldığını bildirdi.

Prezident İlham Əliyev parlament seçkilərinin də şəffaf və demokratik şəkildə baş tutduğunu, xalqımızın iradəsini əks etdirdiyini dedi. Sonra maliyyə naziri Samir Şərifov, Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, kənd təsərrüfatı naziri Heydər Əsədov 2015-ci ildə görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə etdilər.

Yekun nitqində Prezident İlham Əliyev 2016-cı ildə qeyri-neft sektorunun inkişafının prioritet olacağını, neftdən asılılığın minimuma endirilməsi ilə bağlı tədbirlərin görüləcəyini bildirdi. Azərbaycan Prezidenti Dövlət Neft Fondunun vəsaitlərinin qorunması, Fonddan dövlət büdcəsinə transferlərin azaldılması, vergi bazasının genişləndirilməsi, gömrük rəsmiləşdirilməsi və ixrac-idxal əməliyyatlarının şəffaflığının təmin olunması, maliyyə nəzarətinin gücləndirilməsi ilə bağlı tapşırıqlarını verdi. Prezident İlham Əliyev bu kimi məsələlərə ictimai nəzarət mexanizmlərinin işə salınmasının əhəmiyyətinə toxundu. Bundan əlavə, dövlətimizin başçısı biznes mühitinin yaxşılaşdırılması, nağdsız ödəmələrin artırılması, fiskal təşviq mexanizmlərinin genişləndirilməsi, sahibkarlara güzəştli kreditlərin verilməsinin davam etdirilməsi, bank sektorunda islahatların aparılması, özəl bankların ölkə iqtisadiyyatının inkişafında daha fəal iştirak etməsi ilə bağlı fikirlərini çatdırdı.

Prezident İlham Əliyev manatın məzənnəsindən danışarkən qeyd etdi ki, son vaxtlar müşahidə olunan qiymət artımı yerli məhsullara şamil edilməməlidir.

2016-cı ildə pensiya və əmək haqlarının qaldırılması ilə bağlı hökumətə təkliflər hazırlamağı tapşıran dövlətimizin başçısı kənd təsərrüfatında islahatların genişləndirilməsi, meliorasiya tədbirlərinin davam etdirilməsi, əhalinin su, qaz və elektrik enerjisi ilə təchizatının daha da yaxşılaşdırılması, regionlarda sənaye zonalarının yaradılmasının sürətləndirilməsi, dotasiya ilə yaşayan rayonların iqtisadi səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlar verdi və görülən işlərlə əlaqədar hər rüb məlumat verilməsi ilə bağlı rayon icra başçıları qarşısında tələb qoydu.

2016-cı ildə struktur islahatlarının aparılacağını, çevik idarəetmə mexanizmlərinin yaradılacağını və bununla bağlı yaxın vaxtlarda addımların atılacağını deyən Prezident İlham Əliyev informasiya-kommunikasiya texnologiyalarının inkişafı və bu sektorda şəffaflığın təmin edilməsinin vacibliyindən danışdı, turizm və nəqliyyat sektorunun inkişafının diqqət mərkəzində saxlanılacağını dedi.

Dövlətimizin başçısı nəqliyyat dəhlizlərinin səmərəli işləməsi ilə bağlı tədbirlərin görülməsinin əhəmiyyətinə toxunaraq dedi ki, tranzit yüklərin Azərbaycan ərazisindən daşınması üçün Koordinasiya Şurası yaradılıb və artıq Azərbaycan, Gürcüstan, Türkiyə bu dəhlizdə vahid tarif siyasəti yürüdür. Türkiyə-Rusiya münasibətlərinin kəskinləşməsindən sonra isə Türkiyəyə məxsus tırların Orta Asiyaya gedişini asanlaşdırmaq üçün Azərbaycan öz imkanlarını işə salıb.

Bununla yanaşı, Prezident İlham Əliyev tikinti sahəsində açıq tenderlərin keçirilməsi, bu sahədə də şəffaflığın təmin olunması, üstünlüyün daha çox yerli şirkətlərə verilməsi, paytaxt nəqliyyatının vahid sistemə keçidinin sürətləndirilməsi, ekoloji məsələlərin həlli, yeni “ASAN xidmət” mərkəzlərinin açılması və ona yeni səlahiyyətlərin verilməsi ilə bağlı tapşırıqlar verdi.

Çıxışının sonunda dövlətimizin başçısı 2016-cı ildə Bakıda bir neçə mötəbər tədbirin, o cümlədən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun keçiriləcəyini bildirdi, ölkəmizin tolerantlıq ənənələrinə, mədəniyyətlər və sivilizasiyalararası dəyərlərə mühüm töhfələr verdiyini nəzərə alaraq 2016-cı ili Azərbaycanda “Multikulturalizm ili” elan etdi.




# TANAP-da bütün işlər sürətlə davam edir

**Azərbaycan qazını Türkiyə üzərindən Avropaya daşımağı hədəfləyən Trans Anadolu Qaz Boru Kəməri (TANAP) üçün bütün işlərin sürətlə davam etdiyi və layihədə istifadə edilmək üçün bu ana qədər istehsal edilən 850 kilometrlik borunun təslim edildiyi qeyd olunub.**

Türkiyənin "Anadolu" agentliyi xəbər verir ki, təhvil verilən 850 kilometrlik borunun 20%-i Çində, qalanı isə Türkiyədə istehsal olunub. Layihə çərçivəsində, Türkiyə sərhədləri içərisində biri Eskişehir və digəri Frakiyada olmaqla, milli qaz ötürmə şəbəkəsinə bağlantı üçün iki çıxış nöqtəsi yer alacaq. Bu çıxışlardan Türkiyə, boru ilə nəql ediləcək illik 16 milyard kubmetrlik qazın 6 milyardını öz istifadəsi üçün alacaq, qalan 10 milyard kubmetri isə Avropaya gedəcək.

Cənubi Qafqaz Boru Kəməri (SCP) və Trans-Adriatik Boru Kəməri (TAP) ilə birləşərək Cənubi Qaz Dəhlizinin bir hissəsini təşkil edəcək TANAP, 19 kilometri Mərmərə Dəniz keçidi olmaq üzrə cəmi 1850 kilometr uzunluğundadır.

ARDNŞ-nin 58 faiz, BOTAŞ-ın 30 faiz və BP-nin 12 faiz pay ilə birgə olduğu layihənin əsası, keçən il mart ayında Prezident Rəcəb Tayyib Ərdoğan, Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Qarsın Selimiye rayonunda keçirilmişdi.

**Bioloji Təbabət Klinikası**
**Almaniya - Azərbaycan**




**Üstünlükləri:**
- Özünübərpa və müdafiə mexanizmlərinin pozulmuş funksiyalarının bərpası
- Xəstəliyin deyil xəstənin müalicəsi
- Yalnız təbii tərkibli potensiyalaşdırılmış dərman preparatlarından istifadə

**MÜAYİNƏLƏR:**
- Avtomatlaşdırılmış müasir laboratoriya vasitəsilə biokimyəvi, hematoloji, kliniki analizlər
- Çoxfunksiyalı, məsafədən idarə olunan rəqəmsal rentgen vasitəsilə onurğa, sümük- oynaq xəstəliklərinin müayinəsi
- Qaranlıq sahəli mikroskop vasitəsilə qanın funksional və keyfiyyət analizi
- 4D rejimli USM aparatı vasitəsilə ginekoloji, baş- beyin və qarın boşluğunun müayinəsi
- KT (kompüter tomoqrafiya)
- İkienerjili-rentgenoloji densitometr vasitəsilə sümük-oynaq xəstəliklərinin müayinəsi (osteoporozun erkən aşkarlanması)
- Videoendoskopiya (bronxoskopiya, qastroskopiya, kolonoskopiya, kolposkopiya)
- AFGEN Genetik diaqnostika mərkəzi (Türkiyənin Ege Universitetinin professoru Afiq bərdəlinin rəhbərliyi ilə fəaliyyət göstərən müasir laboratoriyada bütün növ genetik xəstəliklərin dəqiq analizləri aparılır)
- BRD (biorezonans diaqnostika)- vasitəsilə virus və qurd xəstəliklərinin müayinəsi və müalicəsi
- EEQ -beyin hüceyrələrinin aktivliyi öyrənilir
- PZR laboratoriya aparatı vasitəsilə dəqiq və keyfiyyətli analizlər
- Elektromioqrafiya – periferik sinir sistemi xəstəliklərinin diaqnostikası və oxşar xəstəliklərlə differensial diaqnostikası aparılır.

**MÜALİCƏLƏR:**
- Plazmaferez
- Homeosiniatriya
- Ozonoterapiya
- Hidrokolonoterapiya
- Drenaj terapiya
- İynəbatırma (akupunktura)
- Tibbi kosmetologiya
- Şərq təbabəti ilə müasir təbabətin sintezi Biopunktura
- Osteopatiya
- Manual terapiya
- Autohemoterapiya
- Hirudoterapiya

Müasir aparatura ilə təchiz olunmuş müasir fizioterapiya şöbəsində ESWT, WINPLATE, Lazer, Maqnit apparatlarıyla elektroterapiya, Reabilitasiya, Massaj, Kinezioterapiya müalicələri aparılır.

“BiolojiTəbabət”klinikası
**Ünvan:** 3-cü mkr. Pişəvari küç., 110
(“Memar Əcəmi” metro stansiyasının yaxınlığı)
Telefon: (012) / (070) (050) / (055) **430 89 89**
e-mail:bioklinik@biolojitababat.az




# Almaniya aviaşirkəti Azərbaycanda nümayəndəlik açır

Almaniyanın "Hahn Air Lines GmbH." şirkətinin Azərbaycandakı nümayəndəliyi qeydiyyatdan keçib. Vergilər Nazirliyinin qəzetində verilən xəbərə görə, şirkətin hüquqi ünvanı olaraq Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, ev 78, mənzil 63, qanuni təmsilçisi Emil Vrgoc (Almaniya) qeyd olunub.

Bildirək ki, şirkət dövlət qeydiyyatına 2015-ci il dekabrın 14-də alınıb.

Qeyd edək ki, "Hahn Air"in səhmlərinin 100%-i müxtəlif ölkələrdə ofislərə məxsus olan "Saspo Holding GmbH."-yə məxsusdur. "Hahn Air" Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (IATA) üzvüdür.

# Bakıda iri qabaritli transformatorlar zavodu açıldı



Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Suraxanı rayonunda "ATEF Şirkətlər Qrupu"nun iri qabaritli transformatorlar zavodunun açılışında iştirak edib, yüksək gərginlikli avadanlıqlar istehsalı zavodunun təməlini qoyub.

İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev qurumun yaranması və fəaliyyəti barədə dövlətimizin başçısına məlumat vermişdir.

"ATEF Şirkətlər Qrupu"nun rəhbəri Talıb Əlixanbəyov şirkətin Əmircan qəsəbəsindəki Bakı yağ transformatorları zavodu, Qaraçuxur qəsəbəsində transformatorlar və elektrotexniki avadanlıqlar istehsal edən zavod, Hövsan qəsəbəsində isə metal konstruksiya zavodu barədə məlumat verdi. Bildirildi ki, bunlardan başqa, şirkətin layihə-konstruktor bürosu, 3 tikinti-quraşdırma, həmçinin nəqliyyat və mexanikləşdirmə idarələri var. Şirkətin transformatorlar zavodu 2005-ci, metal konstruksiya zavodu isə 2011-ci ildən fəaliyyət göstərir.

Prezident İlham Əliyevə şirkətin Azərbaycanda və xaricdə gördüyü işlər, ixrac imkanları və perspektivləri barədə məlumat verilmişdir.

İri qabaritli transformatorlar zavodunun sınaq laboratoriyası müasir səviyyədədir. Buradakı qurğular 2,4 milyon voltadək yüksələ bilən impuls gərginliyi və 700 min voltadək dəyişən cərəyan verə bilir. Bu isə istehsal edilən transformatorların izolyasiyasını yoxlamağa imkan verir. Zavodda azərbaycanlı mütəxəssislər beynəlxalq təcrübəyə əsaslanan intellektual biliklərdən istifadə edirlər.

Ümumi sahəsi 15,6 hektar, istehsal sahəsi isə 14 min kvadratmetr olan zavod 3 korpus və 5 istehsal sahəsindən ibarətdir. Müəssisədə iri qabaritli güc transformatorları və reaktorların istehsalı nəzərdə tutulur. Burada həm də müxtəlif növ elektrotexniki avadanlıqlar, açıq və qapalı tipli yarımstansiyalar istehsal ediləcək. Cənubi Qafqazda analoqu olmayan, dünyanın aparıcı şirkətlərinin istehsal etdiyi avadanlıqla təchiz edilmiş zavodda yüksək keyfiyyətli məhsul hazırlamaq üçün bütün şərait var. Burada 300 nəfər işlə təmin edilib.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və tövsiyələrini vermişdir.

# Heydər Əsədov: İl kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin artırılması ilə yadda qalıb

**"BMT tərəfindən 2015-ci ilin "Beynəlxalq torpaq ili" bəyan edilməsi və bu qlobal çağırışlara qoşularaq həmin ilin Azərbaycanda "Kənd təsərrüfatı ili" elan olunması aqrar sektora göstərilən dövlət qayğısının təzahürü olmaqla, aqrar sahədə inkişafın keyfiyyətcə yeni mərhələsinə keçid üçün təməl yaradıb".**

Trend-in məumatına görə, bunu kənd təsərrüfatı naziri Heydər Əsədov yanvarın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib.

H.Əsədov bildirib ki, birincisi, hesabat ili qlobal miqyasda büdcə xərclərinə qənaət rejiminin tətbiq olunması fonunda ölkəmizdə kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin artırılması və əhatə dairəsinin genişləndirilməsi ilə yadda qalıb:

**"Bu məqsədlə "Aqrolizinq" ASC tərəfindən lizinqə verilən kənd təsərrüfatı texnikalarının ilkin dəyərinə 40 faiz güzəşt tətbiq olunub ki, nəticədə bir il ərzində 4100 nəfər texnika istifadəçisi yerlərdə "ASAN xidmət" prinsipi ilə 50 milyon manatadək güzəşt əldə edib. Bu isə onların həmin sahəyə investisiya imkanlarını xeyli artırıb. Sabit büdcə ayırmaları, yığımın kəskin şəkildə artırılması və dövriyyənin sürətləndirilməsi hesabına son 2 ildə əsasən Avropa istehsalı olan 6900-dən çox kənd təsərrüfatı texnikası alınaraq lizinqə verilib ki, bu göstərici də ASC-nin yarandığı tarixdən gətirilən texnikaların 62 faizini təşkil edir".**

Nazir bildirib ki, fermerlərə satılan gübrənin qiymətinə tətbiq edilən güzəşt 50 faizdən 70 faizə, güzəşt məbləğinin yuxarı həddi isə hər hektara görə 50 manatdan 80 manata qaldırılıb ki, bunun nəticəsində də əvvəlki illərlə müqayisədə ölkəyə gətirilən gübrənin həcmi 85 min tondan 150 min tona çatdırılmaqla, inkişaf etmiş dövlətlərdəki səviyyəyə uyğunlaşmaq üçün ciddi addım atılıb:

**"Yanacaq və motor yağlarına görə verilən subsidiyanın həcmi 25 faiz artırılaraq 50 manata yüksəldilib ki, bununla da həmin məqsədlə büdcədən verilən subsidiyanın həcmi 22 faiz artırılıb. Cari mövsümdən etibarən verilən subsidiya və güzəştlərin ikinci əkinə də şamil olunması, yəni, il ərzində iki dəfə əkin aparana ikinci dəfə subsidiyanın verilməsi qərara alınıb ki, bu tədbirin icrası ölkədə yem təminatının gücləndirilməsində xüsusi rol oynayacaq. Cari ildən etibarən müasir suvarma sistemlərinin dəyərinin 40 faizi dövlət tərəfindən ödəniləcək ki, bu dəstək ənənəvi olaraq tətbiq edilən və torpaqların deqradasiyasına, şoranlaşmasına səbəb olan selləmə üsulu ilə suvarma metodundan su resurslarına qənaət edən müasir suvarma üsullarına keçid üçün mühüm rol oynayacaq. Məhsul istehsalçılarını keyfiyyətli, potensial məhsuldarlığı yüksək toxumlarla təmin etmək üçün Dövlət Taxıl Fondu yaradılıb ki, bu da ölkədə toxumçuluğun inkişafının səmərəli tənzimlənməsinə, bitkiçilik sahəsində məhsuldarlığın yüksəldilməsinə hədəflənib".**

H.Əsədov vurğulayıb ki, süni mayalanma yolu ilə alınmış hər buzova görə heyvan sahiblərinə 100 manat həcmində subsidiya müəyyən edilib:

**"Bu dövlət dəstəyinin tətbiqi yüksək məhsuldar, genetik potensialı olan heyvanların baş sayının artırılmasına və sözügedən sahəyə marağın gücləndirilməsinə, eləcə də heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına çox mühüm töhfə verəcək. Qeyd etmək lazımdır ki, dövlət dəstəyi gücləndirilməklə yanaşı, onun tətbiqi mexanizminin təkmilləşdirilməsi üçün aqrar sektor üzrə 100-ə yaxın normativ sənəd qəbul olunub, subsidiyanın verilməsi sahəsində şəffaflığın artırılması üçün ciddi tədbirlər görülüb. Bununla yanaşı, ictimai məlumatlılığı artırmaq məqsədilə yardım alan bütün fermerlərin adı, torpaq sahəsi, yardımın məbləği və sair məlumatlar hər bir rayon, kənd üzrə nazirliyin rəsmi internet saytında yerləşdirilib. Nəticədə yerlərdən məlumatlar alınaraq bu sahədə ciddi intizamın yaradılmasına nail olunub".**

# Maliyyə naziri: 2015-ci il dünya iqtisadiyyatının inkişaf templərinin artımı ilə deyil, gözlənilməz azalması ilə səciyyələnib

**Maliyyə naziri: 2015-ci il dünya iqtisadiyyatının inkişaf templərinin artımı ilə deyil, gözlənilməz azalması ilə səciyyələnib.**

**Bunu yanvarın 10-da Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda maliyyə naziri Samir Şərifov deyib.**

Belə ki, Dünya Bankı və Beynəlxalq Valyuta Fondu 2015-ci ilin qlobal iqtisadi artım tempi üzrə 3,8 faiz artım proqnozunu azaldaraq hazırda 2,4 faiz təşkil edəcəyini bəyan ediblər ki, bu da 2014-cü illə müqayisədə 1 faiz azalma deməkdir.

İnkişaf etmiş ölkələr son 6 il ərzində olduqca yumşaq monetar və ucuz pul siyasətinin yürüdülməsi hesabına iqtisadiyyatlarının böhrandan çıxmasına yenicə nail olur.

İnkişaf etməkdə olan ölkələr isə böhranın residivləri və 2016-cı ilin ilk həftəsində dünya fond birjalarında yaşanan təlatümlərə nəzər salsaq, hətta böhranın yeni dalğası ilə üz-üzə gəlirlər. Qlobal böhranın yeni fazasının əsas cəhəti dünya istehlakının artım templərinin və qlobal ticarətin zəifləməsi, bununla əlaqədar qiymət şoklarının, əsasən də xammallar üzrə qiymətlərin kəskin enməsinin ərsəyə gəlməsidir. 2015-ci ildə enerji, metal və bitki əmtəələrinin qiymətlərində son 5 ilin ən yüksək səviyyəsi ilə müqayisədə orta hesabla 45 faiz geriləmə müşahidə olunub.

Ölkəmizin əsas ixrac məhsulu və xarici valyuta daxilolmalarının mənbəyi olan xam neftin qiyməti 3 dəfədən artıq azalıb, 2000-ci illərin əvvəllərindəki səviyyələrədək enib.

2015-ci ildə ölkə iqtisadiyyatının artımı, büdcə - fiskal dayanıqlılığı təmin edilib. Ümumi daxili məhsulun 1,1 faiz artım səviyyəsi əvvəlki illərdəki artımla müqayisədə az olsa da, olduqca əhəmiyyətli dərəcədə azalan xarici valyuta gəlirləri şəraitində əldə edilib.

Hesabat ilində dövlət büdcəsinin gəlirləri nəzərdə tutulduğundan 2,3 milyard manat və ya 11,6 faiz az olub.

**Nazir gəlirlərin azalmasının əsas səbəbini neftin qiymətinin dünya bazarlarında kəskin aşağı düşməsi ilə əlaqələndirmişdir. O, qeyd etmişdir ki, Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi xətləri ilə təmin edilən daxilolmalar 100,1 faiz səviyyəsində icra olunub və müvafiq olaraq dövlət büdcəsi gəlirlərinin 41,5 və 9,3 faizini, mütləq ifadədə isə 7 milyard 118 milyon manat və 1 milyard 592 milyon manat təşkil edib.**

Qeyd edilməlidir ki, 2015-ci ildə qeyri-neft sektoru üzrə büdcə daxilolmaları 6 milyard 950 milyon manat və yaxud 103,0 faiz icra edilməklə proqnozla nəzərdə tutulduğundan 200,0 milyon manat, 2014-cü illə müqayisədə isə 694,0 milyon manat və ya 9,5 faiz çox təşkil edib.

Ümumən vergi daxilolmalarında qeyri-neft sektorundan daxilolmaların xüsusi çəkisi 40,5 faiz təşkil edib ki, bu da 2014-cü illə müqayisədə 6,5 faiz-bənd çoxdur.

Ölkə iqtisadiyyatının məruz qaldığı xarici qiymət şoklarının qısa və ortamüddətli təsirlərinə cavab olaraq büdcə yığcamlaşdırılması siyasətinin davam etdirilməsi və təsdiq olunmuş büdcə xərclərinin 3,1 milyard manat və ya 15,0 faiz ixtisar edilməsi qərarına gəlinib.

Bununla belə, sosialyönümlü xərclərin prioritetliyi saxlanılaraq, həmin məqsədə büdcə xərclərinin 32,1 faizi və ya 5 milyard 752 milyon manatı yönəldilib ki, bu da 2014-cü illə müqayisədə 5,0 faiz çoxdur.

KİVDF

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.*

# Milli məhsullarımız xarici bazarlarda

**Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq son illər ölkəmizin hər bir sahəsində ciddi irəliləyişlər əldə olunmuşdur. Bu istiqamətdə iqtisadiyyatın əsas prioritetlərindən sayılan sahibkarlığın inkişafı da göz qabağındadır. Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə sahibkarlara güzəştli kreditlərin verilməsi, investisiya layihələrinin maliyyələşdirilməsi, müasir texnologiyaların tətbiqinə əsaslanan rəqabət qabiliyyətli layihələrin reallaşdırılması, əhalinin müxtəlif təbəqələrinin sahibkarlıq fəaliyyətinə cəlb olunması bu sahəyə dövlət dəstəyinin bariz göstəricisidir.**



"Az-Granata" şirkəti də geniş çeşidli məhsul istehsalına malik sahibkarlıq subyektlərindən biridir. Cənubi Qafqazın ən böyük istehsalçılarından olan şirkət dünyanın 10-dan artıq ölkəsinə məhsul ixrac edir.

"Az-Granata" şirkətinin mərkəzi Ağsuda yerləşir. 8.8 hektar ərazini əhatə edən zavodun örtülü əsas sahəsi 20500 kvadratmetr, istehsalat sahəsi 15000 kvadratmetr, örtülü köməkçi sahəsi isə 5500 kvadratmetrdir. Zavod ətrafı 24000 kvadratmetr ərazidə yaşıllaşdırma işləri həyata keçirilmişdir. Zavodun su ehtiyacının qarşılanması məqsədilə 6 artezian quyusu istifadəyə verilmişdir ki, bununla da günlük 700-800 ton su təmin edilir. Zavodun 1000 ton su ehtiyatı və saatda 40 ton suyu təmizləyə bilən su filtri də mövcuddur. 2 ədəd 2000 kV-lıq transformator, 1 ədəd 1750-lik generator, 800 kV-lıq UPS sistemi və 7 km elektrik xətti ilə təmin olunmuş zavod daxili havasını saatda 10-15 dəfə dəyişəcək havaladırma sisteminə də malikdir. Zavodun kanalizasiya xəttinin uzunluğu 8000 metrdir. Hazırda 180 nəfərlik kadr potensialına malik zavodun gələcəkdə 350 nəfəri işlə təmin edəcəyi də planlaşdırılır. Zavod şirə və şərab istehsalat sexləri, 5 mərtəbəli inzibati bina və ziyarətçilərin qonaqlaması üçün 3 mərtəbəli və 13 qonaq otaqlı otel binasından ibarətdir.

"Az-Granata" şirkəti istehsal prosesində əsasən ən son və modern texnologiyalardan istifadə edir ki, bu avadanlıqlar da əsas olaraq Almaniya, İçveçrə, İtaliya, Bolqarıstan və Fransa kimi ölkələrdən alınır. Zavod daxilində mövcud olan analiz labaratoriyasında məhsulun kimyəvi və mikrobioloji, ləzzət, dad, aroma, görüntü və satışa uyğunluğunu müəyyənləşdirən lazımi təhlillər aparılır, məhsulun həm gigiyenik, həm də digər standartlar baxımından uyğunluğu təmin edilir.

Zavodda istehsal kompleksinin əsas bölmələrinə:

**- çəyirdəkli, çəyirdəksiz və tumlu meyvələrin emalı texnologiyalarının daxil olduğu meyvələrin ilkin emalı sexi;**

**- qısamüddətli, yüksək temperaturlu sterilizasiya üçün pasterizə edicilər, aseptik saxlama çənlərinin daxil olduğu yarimfabrikatların aseptik saxlanması sexi;**

**- su və şirələrin hazırlanması sexi;**

**- məhsulların və yarımfabrikatların müxtəlif şüşələrə və aseptik qablaşdırmalara tökülməsi sexi;**

**- şirələrin karton paketlərə tökülməsi sexi;**

**- xammalın, yarımfabrikatların və məhsullların keyfiyyət nəzarəti üçün laboratoriya daxildir.**

3 ədəd meyvə şirəsi üçün və 1 ədəd şərab üçün cəmi 4 ədəd qablaşdırma xəttinə malik olan zavodda 1 l, 750 ml və 200 ml-lik şüşə qablaşdırma üçün 1 ədəd qablaşdırma xəttində meyvə şirəsi və nektarı pasterizə edilərək qablara doldurulur. 1 l-lik və 200 ml-lik Tetra-Pak xəttində isə hər biri üçün 1 ədəd qablaşdırma xəttində meyvə şirəsi və nektarı pasterizə edilərək qablaşdırılır. Burada 16 növ meyvə şirəsi istehsal edilərək 50 ədəd şərti qablarda istehlakçıya təqdim olunur. İstehsal gücü saatda 12 ton meyvə şirəsi və 3 ton şərab olan zavod saatda 20 ton meyvə qəbulu gücünə malikdir. Zavodun illik istehsal gücü 50000 ton meyvə şirəsi və ya 65 milyon şərti qabdlaşdırmadır. Meyvə qəbulu sexi üzüm, nar, alma, armud və heyva çeşidləri üçün uyğundur. Bu sexdə meyvənin qəbulu, təmizlənməsi, sortlaşdırılması, istənməyən mikrorqanizmlərin öldürülməsi, aseptik çəndə saxlanılması və qatılaşdırılaraq konsentrat hala gətirildikdən sonra aseptik çənə doldurulması mərhələləri həyata keçirilir. Zavodda 2 milyon litrlik hazır məhsul anbarı da mövcuddur.




Az-Granata zavodunun səlahiyyətində həmçinin 300 hektarlıq orqanik nar bağı və 500 hektarlıq orqanik üzüm bağı var. Şirkətin istehsal kompleksi saatda 7000 ədəd 1 litrlik tetrapak, saatda 9000 ədəd 200 ml tetrapak, saatda 4000 ədəd 1 litrlik şüşə qablaşdırlmalı şirə istehsalı üçün nəzərdə tutulub.

Şirkətdə şirə istehsalı üçün əsasən toxumlu və çəyirdəkli meyvələrin, sitrus meyvələrinin və giləmeyvələrin müxtəlif növlərindən istifadə olunur. Şirkət "Vita1000" adı altında tetrapak və şüşə qablaşdırmalarda istehlakçılara nar, alma, qara qarağat, portağal, armud, çiyələk, ərik, üzüm, ananas, banan, şaftalı, çaytikanı, albalı, ağ gilas, böyürtkən, yemişan, moruq, feyxoa və digər meyvələrin şirə və kompotlarını təlkif edir. Az-Granata şirkətinin məhsulları sırasına öz dadı və faydalı xüsusiyyətləri ilə seçilən, həmçinin Azərbaycanın meyvə şirələri bazarında yeni məhsul olan "+more" şirələri də daxildir. "+more" şirələri də müxtəlif meyvə çeşidlərindən hazırlanaraq tetrapak və şüşə qablaşdırmalarda istehsal olunur.

İstehsal etdiyi şərab çeşidləri ilə Azərbaycanın şərab sektorunda özünəməxsus yer tutan Az-Granata klassik və ən yeni innovativ texnologiyalardan istifadə edir. Yüksək keyfiyyətli üzüm növlərindən hazırlanan şərablar xarici bazarlara da çıxarılır. Zavodun şərab xəttində Qırmızı Kəmşirin, Qırmızı Kəmturş və Ağ Turş növləri üzrə "Kəhrəba", "Səyyah", Rübai", "Bellus", "Qaragöz" adı ilə şərablar istehsal olunur. Nar və üzüm ehtiyatı isə şirkətə məxsus 700 hektar bağlardan təmin edilir. Bağlarda Rkasiteli və Saperavi texniki sortları ilə yanaşı, süfrə üzümü də yetişdirilməkdədir. Zavodun gələcək meyvə ehtiyacını təmin etmək üçün 1000 hektar bağ salınması da planlaşdırılır.

Az-Granata şirkəti həmçinin öz məhsullarını yalnız yerli deyil, həm də xarici bazara təqdim edir. Belə ki, zavod ilk dəfə 2011-ci ilin noyabr ayında nar şirələrini Almaniyaya ixrac etmişdir. Sonralar Avstriya, İngiltərə, Çexiya, Polşa, Rusiya, ABŞ, BƏƏ, Macarıstan və Qazaxıstan kimi ölkələrə də nar suyu və konsentratını ixrac edən şirkət hazırda məhsullarını dünyanın 10-dan çox ölkəsinə ixrac etməkdədir.

Şirkət zəngi məhsul çeşidləri və keyfiyyətli fəaliyyətinin nəticəsi olaraq bir sıra sertifikatlara da layiq görülmüşdür. Bunlara Bio Certificate for the EU, USDA organic for the U.S.A., Kosher Certification, İSO 22000-2005 Food safety, Management System, İSO 9001-2008 Quality management System və Halal Certification daxildir.

Zavodun Ağsu şəhərində öz məhsullarından ibarət mağazası da fəaliyyət göstərir ki, bu da firmanın öz məhsullarını istehlakçılara daha tez bir zamanda çatdırması, həmçinin onları sərgiləmək imkanı baxımından əlverişlidir.

Zavodun geniş çeşiddə məhsullarının təqdim olunduğu mağazanın əsas özəlliklərindən biri isə şirkətin yerli bazarda olmayan ixrac məhsullarını da alıcılara təqdim etməsidir. Belə məhsullardan biri kimi Rusiyada məşhur olan "Leyli" nar suyunu qeyd etmək olar.

Dünyanın bir çox ölkəsinə yerli məhsullarımızı ixrac etməklə Azərbaycan iqtiadiyyatına töhfə verən şirkət həm də milli meyvələrimizin keyfiyyət və əvəzolunmazlığını da nümayiş etdirməkdədir.

*Mətanət HÜSEYNOVA*

# Azərsun: Qiymətlərdə ortalama 20-30 faiz qiymət artımına getməyə məcbur olduq

Azərbaycanın ən böyük qida məhsulları istehsalçılarından biri olan Azərsun Holdinq yerli ekspertləri ədalətli olmağa çağırır.

"Azərsun Holding"in Mətbuat xidmətindən bildirilib ki, manatın məzənnəsinin ABŞ dollarına nisbətən ucuzlaşması bütün sahələrdə olduğu kimi, qida sənayesinə də təsir göstərmişdir. İl ərzində baş vermiş devalvasiyanın təsiri ilə idxal olunan xammallar bahalaşdığından, "Azərsun Holding" istehsal etdiyi məhsulların qiymətində ortalama 20-30 faiz qiymət artımına getməyə məcbur olmuşdur:

"Azərsun Holding" şirkəti Azərbaycanda fəaliyyətə başladığı zamandan ölkənin qida təminatı sahəsində fəaliyyət göstərərək çətin və böhranlı 90-cı illərdə ərzaq qıtlığının aradan qaldırılmasına mühüm töhfələr vermişdir. Şirkətlər qrupunun belə bir keşməkeşli dönəmlərdə fürsətçilik etməyərək, asan qazanc yolu tutmaması, xalqımız və ümummilli liderimiz Heydər Əliyev tərəfindən təqdir edilmişdir. Məhz onun dəstəyilə müasir Azərbaycanda milli qida istehsalı sənayesinin əsası qoyulmuş, "Azərsun Holding" tərəfindən çox sayda istehsal müəssisələri qurulub istifadəyə verilmişdir. "Azərsun Holding"in həyata keçirdiyi layihələr dövlət başçısı İlham Əliyevin imzaladığı regionların sosial-iqtisadi inkişaf, yoxsulluğun azaldılması və iqtisadi inkişaf, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət proqramları çərçivəsində Azərbaycan üçün yeni və müasir sənaye sahələrinin yaranmasına səbəb olmuşdur. Müəssisələrimizin fəaliyyəti nəticəsində on minlərlə insan daimi işlə təmin olunmuş, bölgələrdə yaşayan fermer və təsərrüfatlarla əməkdaşlıq nəticəsində daha on minlərlə insanın öz məşğulluğuna şərait yaranmışdır. Dövlət başçısı tərəfindən həyata keçirilən uzaqgörən siyasət nəticəsində, dövlətin qayğı və dəstəyilə qurulmuş müəssisələrimiz ölkənin təməl qida məhsullarına olan emal-istehsal tələbatını tam qarşılama gücündədir. Lakin istehsal üçün tələb olunan xammal, qablaşdırma, müxtəlif qatqı maddələrinin əksəriyyəti isə xarici bazarlardan alınır.

Son 5 ildə yerləşdiyimiz regiona göstərilən təzyiqlər, siyasi və iqtisadi proseslərlə bağlı neftin qiymətinin 4 dəfə aşağı düşməsi və Azərbaycan Mərkəzi Bankı İdarə Heyətinin qərarına əsasən, manatın məzənnəsinin dəyişməsi qida sənayesinə də təsirsiz ötüşməmişdir. Qeyd etməliyik ki, bütün regionda yaşanan iqtisadi böhran Rusiya, Türkiyə, Qazaxıstan və digər ölkələrdə üçrəqəmli devalvasiyaya səbəb olmuşdur.

Böyük hissəsi dünya birjalarında ABŞ dolları ilə satın alınan, müxtəlif beynəlxalq daşıma şirkətləri vasitəsilə Azərbaycana gətirilən xammal hesabına ölkəmizdə istehsal olunan məhsulların qiymətində də müəyyən tənzimləmələr qaçılmaz olmuşdur. Belə ki, il ərzində baş vermiş devalvasiyanın təsiri olaraq "Azərsun Holding" istehsal etdiyi məhsulların qiymətində ortalama 20-30 faiz qiymət artımına getməyə məcbur olmuşdur. Mövcud vəziyyətin idarə edilməsi, təsirin minimuma endirilməsi məqsədi ilə "Azərsun Holding" bazarda tənzimləyici funksiyalar daşıyan İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti və digər aidiy-yəti dövlət qurumları ilə mütəmadi müzakirələr aparır.

Qeyd olunanları nəzərə alaraq kütləvi informasiya vasitələri və bir sıra ekspertlərdən bu həssas dövrdə diqqətli olmağı, cəmiyyəti yanlış istiqamətləndirməməyi, şərhlər və məlumatlar verərkən yerli istehsal məhsullarının xammal təminatında idxal faktoru və valyuta ilə alınması amilini izah etməyi xahiş edirik. Bəyan edirik ki, dövlət başçısı cənab İlham Əliyevin ölkəmizdə iqtisadiy-yatın liberallaşdırılması və sahibkarlığın inkişafı istiqamətində həyata keçirdiyi bütün addımları dəstəkləyir və əlbəttə ki, biz yerli istehsalçılar və digər idxal ilə məşğul olan biznesmenlər Azərbaycan dövləti və xalqı qarşısında son dərəcədə məsuliyyətli davranmalıyıq.



## Xəzərdə gəmi ilə yük maşınlarının daşınmasında rekord

2015-ci ilin dekabr ayında Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin gəmiləri ilə Bakı-Aktau istiqamətində 566, 2016-cı ilin ilk 7 günü ərzində isə 255 yük maşını daşınmışdır. Müqayisə üçün qeyd edək ki, 2015-ci ilin yanvar-noyabr aylarında Bakı-Aktau istiqamətində ayda orta hesabla 60 yük maşını daşınırdı. Bu da 10 dəfədən çox artım deməkdir. Bu barədə Xəzər Dəniz Gəmiçiliyindən bildirilib.

Şirkətdən bildirilib ki, Ələt limanında yük avtomobillərinin sıxlığının tam aradan qaldırılması istiqamətində Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyi tərəfindən ardıcıl tədbirlər görülməkdədir. Qış aylarında hava şəraitinin çətinliyinə baxmayaraq, gəmilərin əlavə səfərləri təşkil edilir, ehtiyatda olan gəmilər istismara qaytarılır.

Belə ki, dekabrın ortalarından keçən müddətdə əlavə 3 bərə - "Akademik Topçubaşov", "Qarabağ" və "Professor Gül" gəmiləri istismar ehtiyatından çıxarılaraq yükdaşımalara cəlb edilmişdir. Yaxın günlərdə daha bir gəmi – "Merkuri-1" müvafiq texniki işlərdən sonra istismara buraxılacaqdır.

Hazırda Bakıdan Aktau və Türkmənbaşı istiqamətlərində

## Azərbaycan şirkəti Tanzaniyada tenderə qatılıb




Azərbaycanın "Neuron Technologies" şirkəti informasiya texnologiyaları sahəsində həllərinin müxtəlif ölkələrdə fəal təşviqinə başlayıb.

Şirkət Mərkəzi Asiya və Afrikanın bir sıra ölkələrində beynəlxalq tenderlərdə iştirak edir. Hazırda "Neuron Technologies" Tanzaniyada dövlət təhsil sistemi üçün "Tələbə məlumatlarının idarə edilməsi sisteminin tətbiqi" üzrə beynəlxalq tenderə qatılıb.

Şirkətdən bildirilib ki, tenderin tələblərinə görə, Tanzaniyanın Dövlət Təhsil Təsisatı üçün tələbə məlumatlarının idarə edilməsi sistemi işlənib hazırlanmalı, proqram təminatı və avadanlıq-aparat sistemi təchiz edilməlidir. Eyni zamanda, təlimlər keçirilməli, konsultasiya və davamlı dəstək xidmətləri göstərilməlidir. Hazırda təqdim olunan təkliflər qiymətləndirmə mərhələsindədir. Tenderin nəticələri 1 ay müddətində məlum olacaq.

"Neuron Technologies" bu prosesdə artıq ölkəmizin ali təhsil müəssisələrində geniş tətbiqinə başladığı "Unibook" tədrisin informasiya idarəetmə sisteminə əsaslanan "Tələbə məlumatlarının idarə edilməsi" həlli ilə iştirak edir. Azərbaycanda tətbiq olunan bu sistem təhsil üzrə beynəlxalq ekspertlərin müsbət rəyini alıb.

## Vergi hüquqpozmalarına qarşı mübarizə tədbirləri gücləndirilib

**2015-ci ildə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə 1853 cinayət işi başlanmışdır. Aparılan araşdırmalar nəticəsində dövlət büdcəsinə 69,5 milyon manat vəsaitin ödənilməsi təmin edilmişdir.**

Departamentin istintaq idarəsində 815 cinayət işi üzrə ibtidai istintaq tamamlanmış, 57 nəfər barədə təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilmişdir. İstintaqı tamamlanmış cinayət işlərindən 71-i üzrə 83 nəfər şəxs barəsində materiallar ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilmişdir. 576 cinayət işi üzrə büdcədən yayındırılmış vergilər ibtidai istintaq zamanı tamamilə ödənildiyinə görə, icraatına xitam verilmişdir ki, bu da 2014-cü illə müqayisədə 379 iş çoxdur.

Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan olunmuş 44 nəfər şəxs tutularaq departamentin İstintaq idarəsinə təhvil verilmiş, ibtidai istintaqdan yayınan 511 şəxsin məcburi qaydada gətirilməsi, 533 şəxsin tapılaraq istintaqa cəlb olunması, 542 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilmişdir. Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına kömək göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 461 nəfər vergi ödəyicisi tapılaraq onların müvafiq vergi orqanlarına gəlmələri təmin olunmuşdur.

## Ötən ilin proqnoz tapşırığına əməl edilib

2015-ci ilin yanvar-dekabr ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 7 milyard 118 milyon 196,7 min manat vəsait daxil olmuş, proqnoz tapşırığına 100,1 faiz əməl edilmişdir.

İl ərzində vergi orqanlarında 76.877 vergi ödəyicisi qeydiyyata alınmışdır.

## Neft Fondu: Valyuta satışını bərpa etmişik



Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) cari ildə valyuta satışını bərpa etmişdir.

Bu barədə Azərbaycan Respublikası Dövlət Neft Fondundan bildirilib.

"Bugün yeni mexanizm ilə - Mərkəzi Bankın müntəzəm hərracları vasitəsilə ilk hərrac təşkil edilmişdir. Bununla da ölkədəki bütün banklar hərracda iştirak etmək imkanı əldə etmişdir. 200 milyon ABŞ dolları məbləğində vəsait hərraca çıxarılmış və 32 banka satılmışdır.

İl ərzində ARDNF tərəfindən hərraclar vasitəsilə valyuta satışı davam etdiriləcəkdir".

## "Texnikabank"ın səhmdarları dəyişib

"Texnikabank"ın səhmdarlarının strukturunda dəyişikliklər baş verib.Bu barədə bankdan bildirilib.

Məlumata görə, hazırda bankın səhmlərinin 87,06%-i Əliyev Etibar Mahmud oğluna, 4,9%-i Dəmirov Allahverdi Huseyn oğluna, 8,04%-i isə Cabbarov Mirfalax Cabbar oğluna məxsusdur.

Bankın nizamnamə kapitalı 75,1 milyon manat təşkil edir.

Qeyd edək ki, yaxın vaxtlara qədər bankın səhmlərinin 75%-i hüquqi şəxsə, 25%-i isə fiziki şəxslərə məxsus idi.

## Orta aylıq əmək haqqı açıqlandı



2015-ci il dekabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 504 min nəfər olmuş, onlardan 879,4 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 624,6 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, muzdla işləyənlərin 22,4 faizi təhsil, 19,0 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 12,2 faizi sənaye, 8,8 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,4 faizi tikinti, 4,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 3,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,7 faizi informasiya və rabitə, 17,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2015-ci ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,5 faiz artaraq 462,0 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də tikinti sahələrində orta aylıq nominal əmək haqqı daha yüksək olmuşdur.

## "Exchange"lər Mərkəzi Bankın yeni qaydalarına əsasən bağlanıb




Azərbaycanda fəaliyyət göstərən banklar filial və şöbələrindən kənarda fəaliyyət göstərən mübadilə şöbələrini ("exchange") bağlayıb.

"Exchange" bazarında aktiv olan banklardan verilən məlumata görə, bu addım Mərkəzi Bankın İdarə Heyətinin təsdiqlədiyi "Mübadilə şöbələrinin təşkili və mübadilə əməliyyatlarının aparılması Qaydaları"na əsasən atılıb.

Bu Qaydanın bəndinə əsasən, mübadilə şöbəsi bankın səlahiyyətli idarəetmə orqanının qərarına əsasən bankın özünün, filial və ya şöbəsinin yerləşdiyi ərazi vahidində (rayon, şəhər, şəhər rayonu, qəsəbə, kənd) yaradılır. Mərkəzi Bank tərəfindən verilən icazə əsasında fəaliyyət göstərir.

Artıq bu qəbildən olan valyutadəyişmə məntəqələrinin lisenziyası ləğv olunub. Məsələn, Səməd Vurğun bağı ətrafında yerləşən "exchange"lər artıq bağlanıb.

"Bundan sonra valyuta mübadiləsi yalnız bankların filial və şöbələri daxilində aparılacaq", - deyə bankirlərdən biri qeyd edib.

## Ötən il 25,7 milyard manat xərcləmişik



“Ölkənin yetərincə ehtiyatları var. Götürək bayaq da qeyd etdiyim Mərkəzi Bankın devalvasiyadan əldə etdiyi və büdcəyə daxil olmayan 3 milyard manat vəsaiti. Bu 1-ci mərhələ üçün kifayət edir. Təkcə bazarda 30% payı olan Beynəlxalq Bankın sağlamlaşdırılması üçün xərcləməli olduğumuz vəsaiti nəzərə alsaq, bank sistemi daxil olmaqla ölkə iqtisadiyyatının böhrandan sonrakı nəticələrini yumşaltmaq üçün bu məbləğ o qədər də böyük məbləğ görsənmir. Yenə də təkrar edirəm - bunlar qayıdan pullardır”.

*S.YUNUSOV*

# Kənd Təsərrüfatında intensiv inkişaf üsulunun tətbiqi barədə təkliflər



**Nizami SƏFƏROV,**
***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Normativ və Texniki Normativ Hüquqi Aktlar üzrə Elmi-Tətbiqi Mərkəz, Baş mütəxəssis***

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 70 illik yubileyinə həsr olunmuş yığıncaqdakı nitqində Azərbaycan Respublikasının prezidenti İlham Əliyev dünyadakı iqtisadi vəziyyətdən danışıb:

“Bugün dünyada yeni bir dövr yaşanır. Bunu televiziya və kütləvi informasiya vasitələrindən hər bir vətəndaş görür ki, həm bölgədə, həm də dünyada inkişaf, əfsuslar olsun ki, müsbət istiqamətdə getmir. Yeni təhlükələr, təhdidlər, risklər, qarşıdurmalar, müharibələr yaranır. Əfsuslar olsun ki, gələcəklə bağlı proqnoz verərkən nikbinlik üçün heç bir əsas yoxdur. Belə bir şəraitdə hər bir ölkə, əlbəttə, ilk növbədə daxili resurslara arxalanmalı, öz təhlükəsizliyini daha da böyük dərəcədə təmin etməli, dünyada yaşanan maliyyə və iqtisadi böhranlar zamanı öz iqtisadi modelində müəyyən güzəştlər aparmalıdır”.

**Prezident çıxışında deyir:**

**“Biz dünya bazarlarına daha böyük həcmdə kənd təsərrüfatı məhsulları ilə çıxa bilərik”.**

İqtisadiyyatın əsas sahələrindən biri olan kənd təsərrüfatında yüksək məhsuldarlıq əldə etmək üçün bu sahədə intensiv inkişaf üsulunun tətbiqi başlıca amillərdən olmalıdır.

Dünyada yaşanan iqtisadi böhran, hələ ki, davam edir, sonu görünmür. Belə olan halda respublikamızda ciddi islahatlar aparılmalıdır. Son illər Azərbaycanın apardığı siyasət neft-qaz amilindən asılılığımızın maksimum dərəcədə aşağı salınmasına, ölkə iqtisadiyyatının şaxələndirilməsinə, əsas da bölgələrdə yeni iş yerlərinin yaradılmasına xidmət etməlidir.

Prezident İlham Əliyev öz çıxışında göstərir:

**“Azərbaycanda ərzaq təhlükəsizliyi ilə bağlı çox böyük işlər görülmüşdür. Biz özümüzü bütün əsas ərzaq məhsulları ilə, demək olar ki, ya 100 faiz, ya 90 faiz təmin edirik. Bu proses davam edir və edəcəkdir. Son illər ərzində taxılçılıq ilə 20-yə yaxın fermer təsərrüfatı yaradılmışdır. Bu təsərrüfatlarda hər hektara məhsuldarlıq 50-60 sentnerdir. Yəni, ümumi məhsuldarlıqdan iki dəfə çoxdur. Nəyə görə? Çünki orada elmi yanaşma, müasir texnologiyalar tətbiq olunur. Nəzərə alsaq ki, əhalimizin təxminən 50 faizi aqrar bölgələrdə yaşayırlar, gələcəkdə kənd təsərrüfatının inkişfı həm iqtisadi, həm də sosial məsələ kimi daim gündəlikdə olacaqdır. Təsadüfi deyil ki, bu il Azərbaycanda “Kənd təsərrüfatı ili” elan edilmişdir.**

Azərbaycan Respublikasında həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün zəmin yaradılmışdır. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahədə ixrac potensialının artırılması məqsədilə ölkədə dövlət proqramları çərçivəsində bölgələrdə müasir infrastruktur qurulmuş, kəndlərarası avtomobil yollarının şəbəkəsi genişləndirilmişdir.

Dövlət fermerlər üçün bir sıra güzəştlər müəyyən etmişdir. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, vergilərdən azad edilmişdir. Fermer və sahibkarlar güzəştli şərtlərlə kredit, toxum, “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan gübrə, texnika, damazlıq mal-qara almaq imkanlarına



malikdirlər. Eyni zamanda, əkin sahələrinin becərilməsində istifadə olunan yanacaq üçün dövlət subsidiyilar verir. Kənd təsərrrüfatının inkişafına təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, aqrar sektorda mövcud probemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmək günün əsas tələblərindəndir.

Azərbaycanda həyata keçiriləcək aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı, aqrar sahədə ixrac potensialının artırılması məqsədilə aşağıda göstərilən tələblərin ardıcıl həyata keçirilməsi də kənd təsərrüfatı məhsullarının məhsuldarlığının artırılmasına çox köməklik etmiş olar.

Dövlətin fermerlər və fərdi təsərrüfatlar üçün müəyyən etdiyi “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinqlə verilən və lizinq yolu ilə satılan gübrə, texnika, yanacağın əvəzində könüllü olaraq son nəticədə natura formasında bazar iqtisadiyyatı qiymətlərinə uyğun sahibkarlardan hazır məhsulun alınmasının çox effektli nəticəsi ola bilər.

Birincisi sahibkar biləcək ki, onun istehsal etdiyi məhsulun müəyyən hissəsi güzəştli şərtlərlə götürdüyü borcu ödəyəcək, ikincisi, hökumət tərəfindən qəbul edilmiş kənd təsərrüfatı məhsulları şəhərlərdə müəyyən olunmuş baza və maqazinlərə çatdırılmaqla bazarda qiymət artımına qarşı nəzarəti öz əlində saxlamış olacaq. İndi həftəlik keçirilən yarmarkalar vasitəsilə bu işləri nizamlamaq mümkün deyil.

Respublikamızda həlli zəruri olan məsələlərdən biri də sahibkarların, ələlxüsusda xırda fərdi torpaq sahiblərinin istehsal etdiyi kənd təsərrüfatı məhsullarının ölkəmizin iri şəhərlərinə, əsasən də paytaxtımıza gəlib çatdırılması üçün müəyyən maneələr vardır ki, bu maneələrdən biri də yol xərcinin çox baha başa gəlməsidir. Bu maneədən istifadə edən dırnaqarası iş adamları yerindəcə həmin məhsulları istehsalçıdan su qiymətinə alıb, topdan satış adıyla əhaliyə çatdırırlar.

Bu gün ölkəmizdə büdcədən maliyyələşən işçilərin əmək haqlarının artırılması qayğısına qalmaqdansa, əhalinin ərzaq məhsullarına olan tələbatını ödəmək üçün istehsalçıların təklif etdiyi qiymətlərin süni sürətdə həddindən artıq yüksəldilməsinə yol verməmək haqqında tədbirlər görmək lazımdır.

Bunun üçün kənd təsərrüfatı məhsullarının bazarlara daşınması üçün ucuz nəqliyyat növü olan dəmiryol nəqliyyatından istifadə edilməlidir. Əhalinin ən çox məskunlaşdığı Bakı şəhərinə ölkəmizin şimalından, cənubundan və qərbindən gələn sərnişin qatarlarının arxasına bir neçə yük vaqonun qoşulması ilə bu məsələni həll etmək olar. Kənd təsərrüfatı məhsulları istehsalçılarının istehsal etdiyi məhsul bazara az vəsait hesabına gəlib çatarsa, qiymətlərin süni artırılması cəhdi olamayacaq. Bugün ən böyük bəlalardan biri bazarlarda bazar iqtisadiyyatı anlayışının olmamasıdır. Kənd təsərrüfatı məhsullarının hamısı topdan satış bazalarının fəaliyyəti nəticəsində stabil qiymətə alınıb əhaliyə üstünə əlavə qiymət qoymaqla stabil qiymətlərlə satılır. Bu cür ticarət anlayışı bazar iqtisadiyyatı dövründə bazarlara tam hökmranlıq edir. Yuxarıda göstərilən nöqsanların aradan qaldırılması ilə xırda təsərrüfat sahiblərinə lazımi şərait yaradılmalıdır ki, onlar istehsal etdiyi məhsullarını bazarlarda qismən də olsa, sata bilsin ki, istehsal etdiyi məhsulun bəhrəsini görməklə, gələn mövsümdə də bu işi görməyə həvəslənsinlər.





Beynəlxalq investisiya bankları, "Bank of America Merrill Lynch" və "Morgan Stanley" neftin barrelinin qiymətinin 20 dollara qədər düşə biləcəyi barədə xəbərdarlıq etdi.

Beynəlxalq investisiya banklarından "Bank of America Merrill Lynch" və "Morgan Stanley" Çin iqtisadiyyatında inkişafın ləngiməsi, Çinin pul vahidi yuanın dəyərinin azaldılması və ABŞ dollarının digər valyutalara nisbətən dəyərinin artması səbəbilə xam neftin barrelinin qiymətinin bu il 20 dollara qədər geriləyə biləcəyi barədə xəbərdarlıq edib.

"Bank of America Merrill Lynch" yayımladığı hesabatda, OPEC daxilindəki qiymət müharibəsinin qızışması, İranın neft bazarına qayıtmağa hazırlaşması, Çinin pul vahidi yuanın dəyərinin düşməsi qorxusu, bazardakı təklif çoxluğu, ABŞ və Avropada mövsüm normalarının üzərində olan hava temperaturuna görə, xam neftin barrelinin qiymətinin 20 dollar səviyyəsinə qədər enə biləcəyini bildirib.

**YAY AYLARINDA QİYMƏTLƏR QALXACAQ**

ABŞ-da 2015-ci ilin ikinci yarısında ən azı 20 neft şirkətinin iflas etdiyini qeyd edən investisiya bankı neft qiymətlərinin 2016-nın ilk yarısının sonunda 20 dollara düşərək dibi görəcəyini, bunun ardından, ölkədə bir çox neft şirkətinin əməliyyat xərclərini ödəyə bilməyəcəyi və bu səbəbdən ABŞ-da şist nefti hasilatının düşəcəyini və yay aylarından etibarən qiymətlərin yenidən qalxacağını qeyd edib.

Bir başqa beynəlxalq investisiya bankı Morgan Stanley də Çinin pul vahidi yuanın dəyərdən düşməsinin və ABŞ dollarındakı dəyər artımının, neft qiymətlərini sürətlə sala biləcəyini bildirib. Morgan Stanley nəşr etdiyi hesabatda, yuanın 15% dəyər itirməsinin neft qiymətlərini 20 dollara qədər sala biləcəyini vurğulayaraq, ABŞ dollarının dəyərindəki 5%-lik bir artımın da neft qiymətlərini 10 faiz ilə 25 arasında aşağı sala biləcəyinə diqqəti çəkib.

ABŞ Mərkəzi Bankı Fedin bu günə qədər faiz artırmaq yolunu tutduğunu xatırladan Morgan Stanley ABŞ dollarındakı dəyər artımının bu il də davam etməsini gözlədiyini vurğulayıb.

Bank of America Merrill Lynch və Morgan Stanleynin hesabatlarının açıqlanmasından sonra Brent növü xam neftin barrelinin qiyməti 29,77 dollara, Qərbi Texas növü xam neftin qiyməti isə 30,11 dollara qədər geriləyib.

Xam neft qiymətləri iyun 2014-dən bu yana 70%-dən çox dəyər itirərək, son 12 ilin ən aşağı səviyyəsinə çatıb.

Keçən aylarda, investisiya bankları Goldman Sachs və Citigroup neftin barelinin qiymətinin 20 dollara qədər geriləyə biləcəyini xəbərdarlıq etmişdi.

# Standard Chartered-dən neftdə 10 dollar ssenarisi





Böyük Britaniya bankı Standard Chartered neft qiymətlərinin 10 dollara qədər düşə biləcəyi barədə xəbərdarlıq edib.

Standard Chartered neft qiymətlərində baş verən hərəkətlərin tələb-təklif əlaqəsindən "qopduğunu" və bu vəziyyətin neft qiymətlərində 10 dollara qədər geriləməni mümkün edəcəyini bildirib.

Mövzuya dair dərc olunan hesabatda neft qiymətlərinin dollar və qiymətli kağızlar bazarlarından təsirləndiyi və spekulyatorların bu dəyər itkisinin "həddən artıq" olduğu qənaətinə gəlməsinə qədər düşməsinin davam edəcəyi bildirilib.

Standard Chartered-in Əmtəə vahidinin direktoru Pol Horsnell hesabatında neft bazarını əsas göstəricilərin idarə etmədiyini bildirərək "Neftin barrelinin qiyməti 10 dollara qədər düşə bilər" şərhini edib.

# Köhnə mənzillərin də qiymətləri düşüb



"Ötən ilin son ayı üzrə müşahidələr göstərir ki, təkrar yaşayış mənzil bazarında satışa təklif olunan yaşayış mənzillərinin hesablanmış orta təklif qiyməti 1545 dollar/kv.m-dən -2.2% azalaraq 1511 dollar/kv.m-ə qədər, milli valyuta ilə isə ay ərzində 1622 AZN/kv.m-dən 1577 AZN/kv.m bəndinə qədər enmişdir".

Bu, "MBA Ltd" qiymətləndirmə və konsaltinq şirkətinin monitorinq qrupunun hesabatında bildirilir.

Hesabatda qeyd edilir ki, mənzil bazarında qiymətlərdə müşahidə olunan azalma 2015-ci ilin sonuncu ayında da müşahidə edilmişdir. Alıcıların sayında isə nisbətən artım olduğundan, dekabr ayında mənzil bazarının aktivliyi ötən aya nisbətən 3% artmışdır.

### TƏKLİF ARTIB

Ümumilikdə əmlak bazarında gözləmə mövqeyi tutan mənzil satıcılarının sayında dekabr ayında azalma qeydə alınmışdır ki, bu da öz növbəsində təklif portfelinin artmasına gətirib çıxartmışdır. Təkrar mənzil bazarında təklif həcmi 9.9 % artmışdır. Noyabr ayında ümumi təkliflərin sayı 1083 olduğu halda, bu rəqəm sentyabr ayında 1203 təşkil edib. Qeydə alınan ümumi təkliflərin sayı ötən ilin müvafiq ayı ilə müqayisədə isə -39.0% azalıb. Son bir il ərzində bazara satış üçün təklif edilən təkrar mənzillərin sayının böyük həcmdə aşağı düşməsi bazardakı ciddi durğunluqdan xəbər verir.

Ötən aylarda olduğu kimi bu ay da, təklif edilən mənzillərin əksər hissəsi Nəsimi, Xətai, Nərimanov və Yasamal rayonlarında qeydə alınıb və onların ümumi payı 68.4 faizə bərabər olub.

Otaqlar üzrə mənzillərin vəziyyətinə gəldikdə bütün növ otaqlı mənzillərin sayında artım baş verib. Təklif üzrə ən çox artım 3 və 4 otaqlılar üzrə qeydə alınıb. Təkliflə yanaşı, otaqlar üzrə qiymətlər üzrə də dəyişmə baş verib.

Aparılan araşdırmalara əsasən, "eksperimental", "leninqrad", "xruşşov" və "yeni tikili təmirli" layihəli binaların təklif portfelindəki payı bu ayda mütləq çoxluq təşkil edib, müvafiq olaraq 16.2%, 15.3 %, 10.6% və 31.6%.

Ötən ayda layihələr üzrə qiymət azalması daha çox arxitektura, fransız, minsk və xruşşov layihələrində qeydə alınıb, müvafiq olaraq -11.5%, -6.7%, -8.4% və -6.7%. Layihələr üzrə qiymət artımı isə yalnız italyan və stalinka layihəli mənzillərdə hiss edilib, 2,1% və 2.9%.

Bazarda mənzillərin 1 kv.m-nin orta qiymətindən (1511 ABŞ dolları) aşağı olan mənzillər ümumi portfeldə daha çox paya, yəni 57.3 faizə malikdir. Mənzillərin orta sahəsi 75.74 kv.m, orta otaq göstəricisi isə 2.42 təşkil edir. Hər otağın orta satış qiyməti 48 000 ABŞ dolları, mənzilin orta qiyməti isə 116 200 ABŞ dolları təşkil edib.

Sentyabr ayında aktivlik əmsalına görə ən cəlbedici rayonlar Nəsimi, Yasamal və Nərimanov rayonları olub.

### ƏN BAHALI MƏNZİL

Təkrar yaşayış mənzil bazarında kvadrat metrin qiymətinə görə təklif olunan ən bahalı mənzil "arxitektur" layihəli 5 otaqlıda qeydə alınmışdır. "Sahil" metro stansiyası yaxınlığında yerləşən 220 kv.m sahəyə malik olan, yaxşı təmirli mənzilin kvadrat metrinin satışa təklif olunan qiyməti 4500 USD təşkil etmişdir. Ən ucuz mənzil isə Nərimanov rayonunda, Montin qəsəbəsində yerləşən zəif təmirli 80 kv.m-lik sahəyə malik "italyan" layihəli, 2 otaqlı mənzildə qeydə alınıb, 525 USD/kv.m.

***SEYMUR***

# Azərbaycan 109 ölkəyə ixrac, 145 ölkədən isə idxal edir



2015-ci ilin yanvar-noyabr aylarında Azərbaycanın hüquqi və fiziki şəxsləri dünyanın 162 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 109 ölkəyə məhsul ixrac olunub, 145 ölkədən idxal olunub.

Dövlət Statistika Komitəsindən Trend-ə verilən məlumata görə, ticarət dövriyyəsinin 9,6 faizi MDB üzvü dövlətləri, 48,5 faizi Avropa İttifaqı ölkələri, 41,9 faizi isə dünyanın digər ölkələrinin payına düşüb.

2015-ci ilin on bir ayı ərzində xarici ticarət dövriyyəsinin həcmi, statistik məlumatlara əsasən, 23 575,6 milyon ABŞ dolları, o cümlədən ixracın həcmi 15379,4 milyon dollar, idxalın həcmi 8196,2 milyon dollar təşkil edib, nəticədə 7183,2 milyon dollarlıq müsbət xarici ticarət saldosu yaranıb.

İxrac edilmiş məhsulların ümumi həcmində xam neft, neft məhsulları, təbii qaz, meyvə-tərəvəz, şəkər, bitki yağları, heyvan mənşəli piylər və yağlar, plastik kütlə və ondan hazırlanan məmulatlar, alüminium və ondan hazırlanan məmulatlar, kimya sənayesi məhsullarının, idxal olunmuş məhsulların həcmində isə maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar, qara metallar və onlardan hazırlanan məmulatlar, nəqliyyat vasitələri və onların hissələri, ərzaq məhsulları, tütün və tütün məmulatları, əczaçılıq məhsullarının xüsusi çəkisi üstünlük təşkil edib.

2015-ci ilin yanvar-noyabr aylarında qeyri-neft məhsullarının ixracı 2014-cü ilin eyni dövrü ilə müqayisədə 3,6 faiz artaraq 1461,7 milyon dollar təşkil edib.

# Qeyri-ərzaqda 7,1 faizlik inflyasiya




**2015-ci ilin dekabr ayında ərzaq məhsullarının qiymətləri 4,5 faiz, qeyri-ərzaq məhsullarının 7,1 faiz, əhaliyə göstərilən pullu xidmətlərin qiymətləri isə 1,9 faiz bahalaşmışdır. Ümumilikdə, istehlak məhsullarının və əhaliyə göstərilən pullu xidmətlərin qiymətləri əvvəlki ayla müqayisədə 4,4 faiz bahalaşmışdır.**

Ay ərzində düyünün, unun, çörəyin, qarabaşaq yarmasının, makaron məmulatlarının, kolbasa məmulatlarının, balıq məhsullarının, süd məhsullarının, yumurtanın, kərə və bitki yağlarının, şəkər və şəkər tozunun, almanın, armudun, bananın, heyvanın, narın, qozun, fındığın, şabalıdın, xiyarın, pomidorun, balqabağın, badımcanın, bibərin, kartofun, soğanın, sarımsağın, göyərtinin, spirtli içkilərin, tütün məmulatlarının qiymətlərində bahalaşma, limonun, portağalın, naringinin, xurmanın, kələmin, çuğundurun, yerkökünün qiymətlərində isə ucuzlaşma müşahidə olunmuşdur. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

Dekabr ayında qeyri-ərzaq məhsullarından parçaların, geyim və ayaqqabıların, inşaat materiallarının, məişət cihazlarının, məlumatın işlənməsi üçün avadanlıqların, səsin və təsvirin qəbulu, yazılması, əks etdirilməsi üçün qurğuların, telefon və fotoaparatların, mebel və ev əşyalarının, xalça və digər döşəmə örtüklərinin, şüşə məmulatları, yemək qabları və əşyalarının, yuyucu vasitələrin, dərmanların, minik avtomobilləri və onların ehtiyyat hissələrinin, zərgərlik məmulatlarının qiymətlərində bahalaşma müşahidə olunmuşdur. Digər qeyri-ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

Ay ərzində əhaliyə göstərilən pullu xidmətlərdən hava və dəmiryolu ilə beynəlxalq sərnişindaşıma nəqliyyatında, respublikadan kənara istirahət turlarında qiymətlər bahalaşmışdır. Digər pullu xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

## *Gənc tədqiqatçının tribunası*

# Müəssisələrin nizamnamə kapitalının müasir tələblərə uyğunlaşdırılması



Bazar iqtisadiyyatı şəraitində ölkənin sabit, dayanıqlı inkişafının təminatçısı kimi dövlətin inkişaf etmiş maliyyə sisteminin, iqtisadi səbatsızlıqlara tab gətirə biləcək müəssisə və təşkilatlarının olması zəruridir. Dayanıqlı inkişaf üçün bazar iqtisadiyyatının bir növ simvollarına çevrilən maliyyə vasitəçilərinin, cəmiyyətlərin, müəssisələrin ilkin yaradılması prosesində nizamnamə kapitalı formalaşdırılmalıdır. Heç təsadüfi deyildir ki, bank sektorunun maliyyə sabitliyi və dayanıqlığı potensialının gücləndirilməsi, habelə bankların maliyyə vasitəçiliyi və real sektoru, xüsusilə qeyri-neft sektorunu dəstəkləmək imkanlarının genişləndirilməsi məqsədilə Mərkəzi Bankın İdarə Heyətinin 25 iyul 2012-ci il tarixli qərarı ilə fəaliyyətdə olan bankların məcmu kapitalının, habelə yeni yaradılan banklar üçün nizamnamə kapitalının minimum məbləğinə tələb 50 mln. manatadək artırılıb.

Nizamnamə kapitalının həcmi nə qədər böyük olarsa, təsərrüfat subyektinin investisiya cəlbediciliyi, təsərrüfat subyektinə olan etimad bir o qədər çox olar, bu da təsərrüfat subyektinin maliyyə dayanıqlılığının artırılmasına müsbət təsir edər.

Göründüyü kimi, nizamnamə kapitalının həcminin zəruri həcmdən çox olması təsərrüfat subyektinin gələcək fəaliyyətinin əsas təminatçısı olmaqla, təsərrüfat subyektinə qoyulan investisiyaların həcminin artırılmasında və eləcə də təsərrüfat subyekti ləğv edildikdə kreditorların tələblərinin ödənilməsində xüsusi əhəmiyyətə malikdir. Buna görə də nizamnamə kapitalına qoyulan tələblərlə bağlı bütün detallar nəzərə alınmalı və hər zaman təkmilləşdirilməlidir.

### Nizamnamə kapitalı: təkliflər

İqtisadi subyektlərin maliyyə vəziyyətləri barədə fikir formalaşdırmağa imkan verən ən vacib göstəricilərdən biri nizamnamə kapitalıdır. İqtisadi subyektin sabit kapitalı olan nizamnamə kapitalının dəyişdirilməsi mövcud qanunvericiliyə uyğun olaraq həyata keçirilir. Nizamnamə kapitalı həm iqtisadi subyektin gəlir əldə etməsi üçün ilkin kapital, həm də iqtisadi subyekt müflis olduqda onun kreditorlarının maliyyə tələblərinin ödənilməsini təmin edən kapitaldır. Göründüyü kimi, nizamnamə kapitalı iqtisadi subyektin həm maliyyə sabitliyinin, həm də onun normal inkişafının bir növ təminatçısı rolunu oynayır.

AR Mülki Məcəlləsinə əsasən, nizamnamə kapitalı iqtisadi subyektin kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir. Nizamnamə kapitalı AR Nazirlər Kabinetinin müəyyən etdiyi miqdardan az ola bilməz.

İqtisadi subyektin nizamnaməsinə qoyuluşlar pul vəsaitləri, tam ödənilmiş qiymətli kağızlar, digər əmlak, o cümlədən əmlak hüquqları və pul dəyəri olan digər hüquqlar ola bilər.

Bundan başqa, qeyd edək ki, nizamnamə kapitalının həcmi iqtisadi subyektə investisiya qoymaq istəyən investorlar üçün də bu və ya digər dərəcədə qərar verilməsinə təsir edir.

Nizamnamə kapitalının əsas funksiyaları kimi aşağıdakıları göstərə bilərik:

- *Nizamnamə kapitalı ilkin kapital kimi çıxış edir;*
- *Nizamnamə kapitalı iştirak payını müəyyən edir;*
- *Nizamnamə kapitalı ilkin maliyyə mənbəyi rolunu oynayır;*
- *Nizamnamə kapitalı üçüncü şəxslər qarşısında öhdəliklərin icra edilməsinə təminat rolunu oynayır.*

Bütün yuxarıda qeyd edilənləri nəzərə alaraq deyə bilərik ki, nizamnamə kapitalı ilə bağlı bir neçə problem var. Problemi sadə bir misalla izah edim.

Fərz edək ki, A müəssisəsinin nizamnamə kapitalına 100 000 manat pul vəsaiti, ümumilikdə dəyəri 100 000 manat olan daşınar və daşınmaz əmlak (70 000 manat dəyərində bina və 30 000 manat dəyərində isə avtomobil) qoyulub. Cari ildə 5% inflyasiya olduğunu fərz edək. Artıq 100 000 manat pul vəsaiti 5% inflyasiya nəticəsində öz alıcılıq qabiliyyətini azaltmışdır. Belə ki, bazis illə müqayisədə cari ildə pul vəsaitlərinin həcmi 105 000 manat olmalıdır ki, yekunda dəyişiklik olmasın. Əks halda yuxarıda qeyd edildiyi kimi, pul alıcılıq qabiliyyətini itirdiyindən pul vəsaitlərinin indeksləşdirilməməsi pulun həqiqi dəyərini göstərməyəcək. Bu cür halın baş verməsi ilk növbədə nizamnamə kapitalının həcmi barədə yanlış məlumat formalaşdırır.

70 000 manat dəyərində olan binanın dəyəri bu və ya digər səbəblərdən asılı olaraq arta və ya azala bilər, o cümlədən də avtomobilin dəyərində artıb-azalmalar ola bilər. Əksər hallarda binalardan fərqli olaraq, avtomobillərin dəyəri illər keçdikcə qiymətdən düşür. Binalarda isə fərqli hallar baş verə bilər. Nizamnamə kapitalının tərkibinə daxil olan bina və tikililərin dəyərinin yenidən qiymətləndirilməsi nəticəsində dəyərin artıb-azalması amortizasiya xərclərinin dəyişməsinə səbəb olur. Amortizasiya xərcləri gəlirdən çıxılan xərclərə aid edildiyindən burada baş verən dəyişikliklər son nəticədə büdcəyə daxil olan vergilərin həcminin artıb-azalması ilə nəticələnir.

Binaların yenidənqiymətləndirmə nəticəsində dəyəri artdıqda hesablanan amortizasiya məbləği artdığından gəlirdən çıxılan xərc məbləği də artır. Gəlirdən çıxılan xərc məbləğinin artması isə büdcəyə ödənilməli olan verginin azalmasına səbəb olacaqdır.

2-ci halda baş verə bilər: yenidənqiymətləndirmə nəticəsində binaların dəyəri azala bilər. Binaların dəyəri azaldıqda isə hesablanan amortizasiya məbləği azalacaq ki, bu da gəlirdən çıxılan xərc məbləğinin də azalmasına səbəb olacaq. Bu hal isə ödənilməli vergi məbləğinin həcminin artmasına səbəb olacaqdır.

Burada 2-ci diqqət edilməli məsələ təmirlə bağlı xərclərin gəlirdən çıxılmasıdır. Eyni ilə amortizasiya xərclərində olduğu kimi, təmirlə bağlı xərclərin çəkilməsində də yenidənqiymətləndirmə nəticəsində binanın dəyərinin artıb azalmasından asılı olaraq müxtəlif hallar baş verə bilər. Bu halları ayrı-ayrılıqda nəzərdən keçirək.

Əgər yenidənqiymətləndirmə nəticəsində binanın dəyəri artıbsa, bu o deməkdir ki, təmirlə bağlı gəlirdən çıxılan məbləğin həcminin çoxalmasına rəvac verəcək. Yox, əgər əksinə olaraq yenidənqiymətləndirmə nəticəsində binanın dəyəri azalarsa, bu zaman təmirlə bağlı gəlirdən çıxılan məbləğin həcminin azalmasına səbəb olacaqdır.

Yuxarıda qeyd etdiklərimizdən aydındır ki, nizamnamə kapitalı həm iqtisadi subyektin özü, həm də kreditorları üçün çox böyük əhəmiyyət daşıyır. Buna baxmayaraq, qanunvericilikdə nizamnamə kapitalına düzəlişlərin edilməsi nəzərdə tutulmamışdır. Təklif edirəm ki, nizamnamə kapitalına qoyulan pul vəsaitləri hər il üçün indeksləşdirilsin. Müxtəlif dövrlərdə təsis edilən iqtisadi subyektlər üçün bu problemi aradan qaldırmaq məqsədilə bir ili, məsələn bu yeni nəsil pul nişanlarının, yəni sonuncu denominasiya ilini bazis ili kimi götürərək problemi aradan qaldırmaq olar. Əmlak qoyuluşlarında isə hər il qiymətləndiricilər tərəfindən qiymətləndirilmələr aparmaqla nizamnamə kapitalında düzəlişlər edilə bilər ki, bu da mövcud problemlərin aradan qaldırılmasına qismən də olsa təsir göstərər. Nizamnamə kapitalına hər il zəruri düzəlişlərin edilməsi, fikrimcə, həm iqtisadi subyektin özü, həm investorlar, həm də kreditorlar üçün müsbət nəticələr verə bilər.

Vergi ödənilməsi baxımından yenidənqiymətləndirmə həm müsbət, həm də mənfi qiymətləndirilə bilər. Ancaq əvvəldə qeyd edildiyi kimi, nizamnamə kapitalı iqtisadi subyektin kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir. Buna görə də bu kimi faktorların düzgün müəyyən edilməsinin əhəmiyyəti böyükdür. Əks halda nizamnamə kapitalının həcminin həqiqi müəyyən edilməməsi investorlarda, kreditorlarda düzgün olmayan informasiyalar formalaşdıra bilər.

Qeyd edilənlərdən belə qənaətə gəlmək olar ki, təsərrüfat subyektinin fəaliyyətində nizamnamə kapitalının xüsusi rolu olduğundan, təsərrüfat subyektinin ilkin kapitalı, həm də iqtisadi subyekt müflis olduqda onun kreditorlarının maliyyə tələblərinin ödənilməsini təmin edən kapital olduğu üçün ona ilbəil zəruri düzəlişlərin edilməməsi yanlış fikirlərin formalaşmasına səbəb ola bilər. Belə ki, məsələn 2010-cu ildə nizamnamə kapitalı 100 milyon manat olaraq qeydiyyata alınan təsərrüfat subyektinin 2015-ci ildə nizamnamə kapitalı düzəlişlər edilməzsə, yenə də nominal ifadədə 100 milyon manat olaraq qalacaqdır. Ancaq inkişaf və dəyişmələr haqqında əsl həqiqəti görmək üçün nominal dəyişənlərdən deyil, real dəyişənlərdən istifadə edilməlidir. Yəni, 2010-cu ildə 100 milyon manat kimi təsdiqlənən nizamnamə kapitalı baş verən iqtisadi hadisələrdən asılı olaraq həcmcə dəyişiləcəkdir. Buna səbəb iqtisadiyyatda baş verən böhranlar, inflyasiyalar, denominasiya ola bilər. Buna görə də bu kimi hallara diqqət yetirilməsinin hər il nizamnamə kapitalında nəzərə alınması zəruridir.

***Xəyal İSMAYILOV,***
***9 saylı ƏVİ, dövlət vergi müfəttişi***

# ƏLAVƏ DƏYƏR VERGİSİNİN MAHİYYƏTİ VƏ FƏRQLƏNDİRİCİ XÜSUSİYYƏTLƏRİ

*(əvvəli ötən sayımızda)*

Bir çoxları hesab edirlər ki, ƏDV idarəetmədə baha başa gəlir və öz təbiətinə görə reqressivdir. Bu vergidən istifadəyə görə xərcləri üç əsas səbəblə: **1) qulluqçuların sayının artmasına olan tələbatla; 2) bahalı kompyuterlərin tətbiqi zərurətilə; 3) sahibkarların qaimə xərclərinin artması ilə izah etmək olar.** Lakin bu xərclər müvafiq tədbirlərin tətbiq edilməsi hesabına əhəmiyyətli dərəcədə azaldıla bilər. Məsələn, bu vergi subyektlərindən adətən kiçik ticarət dövriyyəsinə malik olan sahibkarları çıxırlar. Qeyd etmək lazımdır ki, əksəriyyət xarici ölkələrdə ƏDV-dən əlavə olunan gəlirlərin 60-70%-i qeydiyyatdan keçmiş sahibkarların cəmi 10-15%-nin payına düşür. Bununla əlaqədar son nəticədə əsas rol oynamayan xırda sahibkarların çoxuna xidmət göstərməkdən və sənədləşmənin yoxlanmasından imtina etmək olar. Vergiqoymaya məruz qalan şirkətin ticarət dövriyyəsinə yüksək güzəşt müəyyən edərək, vergi mütəxəssislərinin güclərini ən məhsuldar və vacib sahələrə yönəltmək olar.




Vahid vergi dərəcəsinin müəyyən edilməsi ƏDV-nin fəaliyyətini və xidmət göstərilməsi sistemini xeyli sadələşdirir, verginin neytrallaşmasına nail olmaq, vergidən yayınmaya əks təsir kimi məqsədlərini təmin edir. Eyni zamanda, sosial məqsədlər qida, dərman və digər ilkin tələbat məhsullarına azaldılmış və ya sıfır dərəcədə verginin və bəzi bahalı mallara yüksək verginin təyin edilməsini tələb edir. ƏDV istehsal və tədavülün hər bir mərhələsinə əlavə edilmiş reallaşdırılmış məhsulun bir hissəsindən vergidir. Əlavə dəyər ödənilən əmək haqqı (əlavələrlə birlikdə) və amortizasiya daxil olmaqla alınan mənfəətin cəmi kimi hesablana bilər:

VA=V+M, burada VA əlavə dəyər, V əmək haqqı və ayırmalar, M amortizasiya daxil olmaqla mənfəətdir.

Eyni zamanda, əlavə dəyəri maddi məsrəflərlə reallaşdırılmış əmtəələrin dəyəri arasında fərq kimi də təsəvvür etmək olar.

VA=S-C, burada VA əlavə dəyər, S reallaşmış əmtəələrin dəyəri, C maddi məsrəflərdir.

Göstərilən tərifləri nəzərə alaraq ƏDV-nin hesablanması üçün əlavə dəyəri dörd üsulla tətbiq etmək olar.

Birinci üsul ƏDV-nin hesablanmasının birbaşa additiv metodudur. Vergi əlavə dəyəri təşkil edən iki elementin – əmək haqqının və mənfəətin hesablanmış məbləğinə vergi dərəcəsinin tətbiqi yolu ilə müəyyən olunur.

VAT= R(v+m)

VAT - əlavə dəyər vergisi, R - vergi dərəcəsi, V - əmək haqqı və ayırmalar, M - amortizasiya daxil olmaqla mənfəət. İkinci metod olan dolayı additiv metod üzrə ƏDV iki verginin cəmi kimi müəyyən olunur: əmək haqqına aid olan ƏDV və mənfəətə aid olan ƏDV. Yuxarıdakı ifadələrdən istifadə edərək aşağıdakı düsturu alırıq.

VAT=Rv+Rm

Üçüncü metod və ya birbaşa çıxma metodu maddi məsrəflərlə reallaşma dəyəri arasında fərqə dərəcəni tətbiq etmək yolu ilə ƏDV-nin hesablanmasını tələb edir. Bunu aşağıdakı düsturla ifadə etmək olar:

VAT=R(S-C)

Burada VAT - əlavə dəyər vergisi, R - vergi dərəcəsi, S - reallaşdırılmış əmtəələrin dəyəri, C - maddi məsrəflər.

Nəhayət, hesablar üzrə hesablama metodu və dolayı çıxma metodu adlanan dördüncü metod ƏDV-ni reallaşdırılmış məhsulun alıcılarından alınan ƏDV ilə maddi resursların məhsul göndərənlərinə ödənilən ƏDV arasında fərq kimi müəyyən edir:

VAT=RS-RC

Verginin birinci və ikinci hesablama metodları, yəni balanslara əsaslanan metodlar mənfəətin müəyyən edilməsini tələb edir. Lakin bir halda ki, vergi ödəyicilərinin balanslarında satışa görə əməliyyatların baş verməsi mövcud vergi dərəcəsinə uyğun olaraq əmtəəlik məhsulun növlərinə bölünmür, eləcə də satınalma əmtəələrinin növlərinə ayrılmır, onda aşkar görünür ki, bu halda əlavə dəyərin yalnız vahid sıfır dərəcəsi tətbiq edilə bilər. Dördüncü metod isə diferensial vergi dərəcəsindən istifadə etməyə imkan verir. Üçüncü metoda, yəni buraxılan məhsulun dəyərindən məsrəflərin çıxılması nəticəsində alınan göstəriciyə vergi dərəcəsinin tətbiqinə gəldikdə o, həm birinci, həm də ikinci metod kimi yalnız vahid vergi üçün rahatdır. Praktikada ödəyicilər üçün əlavə dəyəri hər ay hesablamaq fövqəladə dərəcədə narahat hesab olunur, çünki alqılar və satışlar hər zaman xeyli dəyişə bilər. Ödəyicilər mövsümi tərəddüdlərdən asılı olaraq dəyişən böyük ehtiyatlara malik ola bilərlər.

Beləliklə, hazırda dördüncü metod, yəni bəzən «invoys» adlandırılan metod daha praktikdir. Bu metod əmtəələri daha tam əldə etməyə və daha çox istifadəyə imkan verir. Məhz bu metod praktikada daha geniş yayılmışdır. Bu metoddan Azərbaycanda da istifadə oluna bilər.

*F.M.QARAYEV,*
*BDU-nun dosenti*




# Azercell-in prezidenti Tələbə Təqaüdü Proqramı 2015-in qalibləri ilə görüşdü



Ölkəmizdə təhsilin inkişafı üçün bir sıra sosial layihələr həyata keçirən Azercell Telekom bu sahədə fəaliyyətini davam etdirir. Şirkətin 2008-ci ildən etibarən tələbələrə təqdim etdiyi Tələbə Təqaüdü Proqramının 2015-ci il üçün nəticələri müəyyən edilib. Yanvarın 12-də Azercell şirkətinin prezidenti Vahid Mursəliyev Təqaüd Proqramının qalibləri ilə görüşüb və onlara xüsusi sertifikatları təqdim edib. Vahid Mursəliyev qalibləri təbrik edərək, tələbələrə gələcək karyeralarında uğurlar arzulayıb. Bakı və eləcə də rayonlarda yerləşən universitetləri əhatə edən bu proqrama qatılmaq üçün ölkəmizin müxtəlif təhsil ocaqlarından ümumilikdə 1200-dən çox tələbə müraciət edib. Oktyabrın 1-dən başlanan mərhələli seçim prosesinin sonunda 24 tələbə Azercell-in təqaüdçüsü adına layiq görülüb. Proqram qalibi olan bu 24 tələbə ali təhsil müddətinin sonunadək Azercell şirkəti tərəfindən hər təhsil ayı üçün 200 AZN məbləğində təqaüd alacaqlar. Bu tələbələr arasında Bakı və Azərbaycanın müxtəlif regionlarında fəaliyyət göstərən ali təhsil ocaqlarında təhsil alan gənclər yer alıb. Belə ki, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Dövlət Universiteti, Qafqaz Universiteti, Dövlət İdarəçilik Akademiyası və Bakıda yerləşən digər təhsil qurumları ilə yanaşı, Gəncə, Mingəçevir, Naxçıvan və Lənkəran Dövlət Universitetlərinin tələbələri də Azercell-in fəxri təqaüdçüləri adına layiq görülüblər.

Qeyd edək ki, proqramda seçim prosesi bir neçə mərhələdən ibarət olub. İlk mərhələdə proqram üçün müraciət edən tələbələr say məntiq məsələlərindən ibarət yazılı tapşırıqları yerinə yetirib, həmçinin ingilis dilində müxtəlif mövzularda esselər yazıblar. Son mərhələdə isə tələbələr Azercell şirkətində rəhbər vəzifələrdə çalışan işçi və mütəxəssislərlə üz-üzə müsahibələrdən keçiblər. Nəticədə, bütün mərhələlərdən uğurla keçən tələbələr təqaüd proqramının qalibləri seçiliblər. Tələbə Təqaüdü Proqramının üstünlüyü yalnız maddi dəstəklə bitmir. Təqaüdlə yanaşı, bu gənclər telekommunikasiya sahəsi haqda biliklərini artırmaq, şirkətin korporativ tədbirlərində iştirak etmək, müxtəlif təlimlərə qatılmaq və şirkətdə təcrübə keçmək imkanı əldə edirlər.

Tələbə Təqaüdü Proqramının məqsədi müvəffəqiyyətlə təhsil alan tələbələrə xüsusi qayğı göstərmək və onların gələcəkdə peşəkar kimi formalaşmasına dəstək olmaqdır. Azercell Telekom MMC-nin Dayanıqlılıq strategiyası çərçivəsində keçirilən bu layihə şirkətin korporativ sosial məsuliyyət fəaliyyətini gücləndirir və cəmiyyətimizin rifahının yüksəlməsinə daha çox töhfə vermiş olur.

Azərbaycanın lider mobil operatoru Azercell Telekom bundan sonra da gənc kadrların inkişafına yönəlmiş müxtəlif layihələrə dəstək olacaqdır.

İDEAL DİZAYN
Daimi tərəfdaşınız



Ofis mebeli və layihələr

– Metal dolablar
– Metal stellaj sistemi
– Metal tumbalar
– Metal seyflər
– Metal masalar

Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə Azərbaycanın xalq şairi, tanınmış ictimai xadim
**ZƏLİMXAN YAQUBUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə Milli Məclis Aparatının ümumi şöbəsinin müdiri Təlatüm Quliyevə əzizi
**ƏJDƏR RƏHİMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin əməkdaşları Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimova qohumu
**SVETLANA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ALLAH RƏHMƏT ELƏSİN**

Təsisçi:
**akademik Ziyad SƏMƏDZADƏ**
Baş redaktor: **Aytən SƏMƏDZADƏ**

ELMİ-REDAKSİYA ŞURASI:
*Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Ədalət Muradov, Elşad Səmədzadə, Müşfiq Atakişiyev, Mirdamət Sadıqov, Mehriban Alışanova, Xanhüseyn Kazımlı, Məhiş Əhmədov, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Cahangir Qocayev.*

Kompyuter mərkəzinin direktoru:
**Oqtay ORUCLU**
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya:** 566-09-60
**Ümumi şöbə:** 514-14-27 *(fax)*
**Mühasibatlıq:** 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
**"İQTİSADİYYAT"** qəzetinin kompyuter mərkəzində yığılmış və səhifələnmiş, **"Zaman-Azər" MMC** firmasının mətbəəsində çap edilmişdir.
**Lisenziya: 022201** **İndeks: 0355 Tiraj: 3400**